# QƏRBİ KASPİ UNİVERSİTETİ

## “İngilis dili Mərkəzi” Fəaliyyət Planı:

İngilis dili Mərkəzi tələbələrin İngilis dili bilik və bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif fəaliyyətlər göstərir. İngilis dili mərkəzinin əsas fəaliyyət sahələri aşağıdakılardır:

1. **İngilis dilinin tədrisi:** İngilis dili mərkəzinin əsas məqsədi, tələbələrə yalnız dil biliklərini inkişaf etdirməklə kifayətlənməyib, eyni zamanda onları akademik təhsil həyatına hazırlamaqdır. Mərkəzin fəaliyyətləri arasında tələbələrin yazılı və şifahi bacarıqlarını artırmaq, onların akademik tələblərə uyğun yüksək səviyyəli ingilis dili istifadə etmələrinə şərait yaratmaq da önəmli yer tutur. Tələbələrə dilin müxtəlif növlərində (işgüzar yazışmalar, təqdimatlar, rəsmi və qeyri-rəsmi dialoqlar və s.) düzgün və effektiv ünsiyyət qurma bacarıqları öyrədilir. Bu, onların məruzə və layihə hazırlama, elmi jurnallar yazma kimi fəaliyyətlərində İngilis dilindən daha effektiv istifadə etmələrini təmin edir.İngilis dili mərkəzi universitet daxilində müxtəlif səviyyələrə uyğun tədris təşkil edir.

2. **Təlim və Seminarlar**: İngilis dili mərkəzində fəaliyyət göstərən müəllimlər müxtəlif beynəlxalq təlimlərdə mütəmadi olaraq iştirak edir və xarici ölkələrdə ingilis dilinin tədris ilə bağlı müxtəlif təcrübələrdən yararlanaraq öz tədris prosesində tətbiq edir. Bu fəaliyyətlər tələbələrin və akademik heyətin daha yüksək dil səviyyələrinə çatmağa imkan verir.

3. **Təcrübə və Mübadilə Proqramına dəstək** :

   İngilis dili mərkəzi tələbələrin xarici universitetlərdə təhsil alması üçün İngilis dilinin təkmilləşdirilməsinə, tələbələrin dil biliyi səviyyələrinin yoxlanılmasına və imtahan olunmasına dəstək verir. Tələbələrə iş mühitində (məsələn, şirkət içində, toplantılarda, müştəri ilə əlaqələrdə) istifadə edilən dil qaydaları və ən yaxşı təcrübələr öyrədilir.

4. **Tədris və təşkilati işlər**: Universitetin İngilis dili mərkəzi adətən ingilis dilini təkcə dil olaraq deyil, həm də mədəniyyət olaraq tanıdan tədbirlər də keçirir. Məsələn, dil klubları, tələbələrin iştirakı ilə müxtəlif layihələr,tədbirlər, mühazirələr və diskussiyalar təşkil edərək, tələbələrə ingilis dilində düşünmək və danışmaq imkanı verir.